UOT: 94.; 94(479.24).; 930.22.
DOI: https://doi.org/10.30546/19063.2026.06.5349

AZƏRBAYCAN XANLIQLARININ YARANMASI VƏ CƏNUBİ QAFQAZIN BEYNƏLXALQ SİYASİ VƏZİYYƏTİ (AZƏRBAYCAN, TÜRKİYƏ VƏ RUSİYA TARİXŞÜNASLIĞINDA)

ÜLKƏR ELŞƏN QIZI CƏMİLLİ
AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, doktorant
Bakı şəhəri, İstiqlaliyyət küç., 26
E-mail: ulkarjamilli.uj@gmail.com
https://orcid.org/my-orcid?orcid=0009-0003-6692-0627

XÜLASƏ

Məqalədə XVIII əsrin ortalarında Azərbaycan xanlıqlarının yaranması və Cənubi Qafqazın beynəlxalq siyasi vəziyyəti Azərbaycan, Türkiyə və Rusiya tarixşünaslığında mövcud yanaşmalar əsasında araşdırılır. Tədqiqatda 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra mərkəzi hakimiyyətin zəifləməsi ilə Azərbaycan ərazisində meydana gələn siyasi qurumların təşəkkül xüsusiyyətləri, onların siyasi, sosial-iqtisadi və inzibati əsasları təhlil edilir. Azərbaycan tarixşünaslığında xanlıqların yaranması əsasən mərkəzi hakimiyyətin zəifləməsi, yerli hakimiyyət ənənələri və sosial-iqtisadi amillərlə əlaqələndirilərkən, Türkiyə tarixşünaslığında bu prosesin Rusiya imperiyasının Cənubi Qafqaz siyasəti və regional geosiyasi rəqabət kontekstində izahına xüsusi diqqət yetirildiyi müəyyənləşdirilir. Məqalədə xanlıqların yaranmasına dair tarixşünaslıqda mövcud olan fərqli, o cümlədən Azərbaycanın siyasi statusu və Səfəvi dövlətinin xarakterinə dair konseptual yanaşmalar müqayisəli şəkildə nəzərdən keçirilir. Həmçinin Quba, Şəki, Qarabağ, Lənkəran, Bakı, Şamaxı, Gəncə, Naxçıvan, İrəvan, Urmiya, Xoy, Təbriz, Ərdəbil və digər xanlıqların təşəkkülü ilə bağlı tarixşünaslıq məlumatları sistemləşdirilir. Araşdırma nəticəsində xanlıqların meydana gəlməsinin yalnız mərkəzi hakimiyyətin süqutu ilə izah edilə bilməyəcəyi, prosesin yerli idarəçilik ənənələri, siyasi parçalanma, sosial-iqtisadi amillər və Cənubi Qafqazda Rusiya, Osmanlı və digər regional siyasi qüvvələrin maraqlarının qarşılıqlı təsiri şəraitində formalaşdığı əsaslandırılır.

Açar sözlər: *Azərbaycan xanlıqları, XVIII əsr, tarixşünaslıq, Cənubi Qafqaz, Osmanlı.*

GİRİŞ

XVIII əsrin ortaları Azərbaycan tarixində siyasi quruluşun və beynəlxalq münasibətlərin əhəmiyyətli dəyişikliklərə məruz qaldığı mərhələlərdən biridir. 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsi və mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində Azərbaycan ərazisində çoxsaylı xanlıqlar meydana gəlmiş, bununla da siyasi qüvvələr nisbəti yenidən formalaşmışdır. Xanlıqların təşəkkülü yerli hakimiyyət ənənələri, inzibati idarəçilik təcrübəsi, iqtisadi amillər və yaranmış siyasi boşluğun qarşılıqlı təsiri ilə şərtlənmişdir.

Xanlıqların formalaşması Rusiya imperiyası, Osmanlı dövləti və Cənubi Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələrin maraqlarının kəsişdiyi mürəkkəb geosiyasi şəraitdə baş vermişdir. Bu şərait onların xarici siyasətinin formalaşmasına və qonşu dövlətlərlə diplomatik əlaqələrinin inkişafına təsir göstərmişdir. Xüsusilə Osmanlı dövlətinin Cənubi Qafqaz siyasəti və Rusiya-Osmanlı rəqabəti xanlıqların regional mövqeyinin müəyyənləşməsində mühüm rol oynamışdır.

Məqalədə XVIII əsrin ortalarında Azərbaycan xanlıqlarının yaranmasına təsir edən siyasi və sosial-iqtisadi amillər, onların regional siyasi proseslərdə mövqeyi və Osmanlı dövləti ilə diplomatik əlaqələrinin formalaşması Azərbaycan, Türkiyə və Rusiya tarixşünaslığında araşdırılır. Tədqiqatın əsas məqsədi tarixşünaslıq baxımından Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə münasibətlərini XVIII əsrin ikinci yarısında Cənubi Qafqazda cərəyan edən geosiyasi proseslərlə qarşılıqlı əlaqədə təhlil etməkdir.

ƏSAS MƏTN

1747-ci ilin iyununda Nadir şah Əfşarın öldürülməsi onun yaratdığı imperiyanın siyasi bütövlüyünün pozulmasına və Cənubi Qafqazın, o cümlədən Azərbaycanın siyasi xəritəsinin dəyişməsinə səbəb oldu. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində Azərbaycan ərazisində 20-dən artıq xanlıq yarandı. Onların bir qismi müstəqil fəaliyyət göstərdiyi halda, digərləri qonşu dövlətlərin təsiri altında idi.

Bu siyasi parçalanmada əvvəlki dövrlərin üsyan və müharibələri, iqtisadi tənəzzül və bölgələrarası əlaqələrin zəifləməsi mühüm rol oynadı. Türkiyə tarixçisi Füsun Kara isə xanlıqların yaranmasını yalnız daxili proseslərlə deyil, regionda gedən geosiyasi rəqabətlə də əlaqələndirir. O, xüsusilə mərkəzi ha-

kimiyyətin zəifləməsindən istifadə edən Rusiyanın Azərbaycan istiqamətindəki siyasətini vurğulayır və qeyd edir ki, yaranmış hakimiyyət boşluğu yerli xanlıqların siyasi sərbəstliyini artıraraq Azərbaycan tarixində "Türk xanlıqları" dövrünün başlanmasına şərait yaratmışdır [15, s.7].

Azərbaycan xanlıqlarının yaranma səbəblərinə dair digər yanaşma Mehmet Sarayın əsərində əksini tapır. Müəllif bu prosesi daha çox daxili siyasi və sosial-iqtisadi amillərlə əlaqələndirərək I Şah Abbas dövründən etibarən Azərbaycan türklərinin dövlət idarəçiliyində əvvəlki mövqelərini itirməsini, Osmanlı-Səfəvi müharibələrinin yaratdığı iqtisadi dağıntıları, Nadir şah dövründə ağır vergi siyasətini və məmur özbaşınalığını əsas amillər kimi göstərir. Saraya görə, mərkəzi hakimiyyətin sərt siyasəti ilə yerli əhali arasında yaranmış narazılıq Nadir şahın ölümündən sonra meydana çıxan siyasi boşluq şəraitində müstəqil xanlıqların formalaşmasına zəmin yaratmışdır [10, s.172-173].

Xanlıqların yaranması məsələsinə fərqli yanaşma Nisə Mustafayevanın tədqiqatında müşahidə olunur. Müəllif bu prosesi Azərbaycanın uzunmüddətli İran asılılığından azad olması və əvvəlki müstəqilliyinin bərpası kontekstində izah edir. N.Mustafayeva Səfəvi dövlətində XVII əsrin sonlarından dərinləşən siyasi və iqtisadi böhranın XVIII əsrin 40-cı illərində daha da kəskinləşdiyini, Nadir şah Əfşarın ölümündən sonra isə mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində müxtəlif ərazilərdə müstəqil siyasi qurumların meydana gəldiyini qeyd edir:

"XVIII yüzilliyin əvvəllərindən Səfəvi dövlətində dərinləşən siyasi və iqtisadi böhran Nadir şah Əfşarın ölümündən (1747) sonra daha da kəskinləşdi. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində müxtəlif ərazilər imperiyadan ayrıldı. Bu proses Azərbaycan ərazisində də xanlıqların yaranmasına və siyasi parçalanmaya səbəb oldu. XVIII yüzilliyin ortalarında Cənubi Azərbaycanda Təbriz, Urmiya, Ərdəbil, Xoy, Sərab, Marağa, Maku və Qaradağ xanlıqları formalaşdı. Xanlıqların daxili və xarici siyasəti əsasən hakim təbəqənin mənafelərini əks etdirirdi" [7, s.9].

N.Mustafayevanın yanaşmasında diqqət çəkən məqam Səfəvi dövlətinin "Səfəvi İranı" kimi təqdim edilməsi və Azərbaycan ərazilərinin həmin dövlətin tərkibinə daxil olmasının "İrana birləşdirilmə" kontekstində izah edilməsidir. Bu yanaşma müasir tarixşünaslıq baxımından mübahisəli xarakter daşıyır. Belə ki, Səfəvilər dövlətinin siyasi və etnik-mədəni əsaslarının qiymətləndirilməsi məsələsində onun Azərbaycan türklərinin dövlətçilik tarixindəki rolu ayrıca nəzərə alınmalıdır. Bu baxımdan, Səfəvi dövlətinin yalnız "İran dövləti" kimi təqdim edilməsi onun çoxkomponentli siyasi quruluşunu və Azərbaycan türklərinin dövlət idarəçiliyindəki mühüm rolunu tam əks etdirmir.

Digər tərəfdən, N.Mustafayevanın xanlıqların yaranmasını Azərbaycanın "İran hökmranlığından azad olması" və müstəqilliyini bərpa etməsi kimi səciyyələndirməsi də bu prosesin tarixi-siyasi mahiyyətini tam əks etdirmir. XVIII əsrin ortalarında xanlıqlar Azərbaycanın müxtəlif bölgələrində ayrı-ayrı siyasi qurumlar kimi formalaşmışdı. Buna görə də onların yaranmasını "İran zülmündən azadolma" deyil, Nadir şahın ölümündən sonra mərkəzi hakimiyyətin zəifləməsi, siyasi parçalanma və yerli hakimlərin müstəqilləşməsi ilə şərtlənən mürəkkəb siyasi proses kimi qiymətləndirmək daha məqsədəuyğundur.

Hüseyn Əli Dəlili isə xanlıqların yaranmasını Səfəvilər dövlətinin inzibati bölgüsü və iqtisadi siyasəti ilə əlaqələndirir [2, s.8].

Xanlıq institutunun formalaşmasını yalnız 1747-ci ildən sonrakı siyasi proseslərlə əlaqələndirmək düzgün deyil. Əvvəlki dövrlərdə mövcud olmuş irsi yerli hakimiyyət ənənələri bu proses üçün mühüm zəmin yaratmış, Nadir şahın ölümündən sonra mərkəzi hakimiyyətin zəifləməsi isə siyasi parçalanmanı sürətləndirmişdir. Nəticədə Azərbaycan ərazisində müstəqil və yarımmüstəqil xanlıqlar meydana gəlmişdir. Bu xanlıqlardan biri olan Quba xanlığı Hüseynəli xanın dövründə mövqelərini möhkəmləndirmiş, əlverişli coğrafi şəraiti sayəsində mühüm siyasi mərkəzə çevrilmişdir.

1758-ci ildə hakimiyyətə gələn Fətəli xan Quba xanlığının siyasi, iqtisadi və hərbi gücünün artırılmasına, ərazisinin genişləndirilməsinə və Azərbaycan torpaqlarının vahid hakimiyyət ətrafında birləşdirilməsinə yönəlmiş siyasət həyata keçirmişdir. Bu siyasətin nəticələri Salman İbişovun tədqiqatında da öz əksini tapmışdır:

"Tarixdən məlum olduğu kimi Fətəli xanın hakimiyyəti illərində Şimal-Şərqi Azərbaycan xanlıqları Quba xanlığının ətrafında birləşdirilmişdi. Fətəli xanın hakimiyyəti altında olan Azərbaycan torpaqları Şimali Azərbaycan ərazisinin demək olar ki, yarısını əhatə edirdi" [5, s.40].

Füsun Kara da öz məqaləsində Fətəli xanın birləşdirmə siyasətini təsdiqləyir:

"Fətəli xan 10 il kimi qısa bir müddət ərzində Dərbənd, Bakı və Şamaxı xanlıqlarını birbaşa və ya dolayısı ilə öz hakimiyyətinə tabe etmişdir. O, Bakı xanlığını müharibə yolu ilə deyil, diplomatik vasitələrlə öz hakimiyyəti altına almağa nail olmuşdur" [16, s.505].

Lənkəran xanlığının siyasi təşəkkülü Nadir şah hakimiyyətinin süqutundan sonra Azərbaycanda baş verən siyasi proseslərlə bağlı olmuşdur. Nadir şahın 1741–1742-ci illərdə Dağıstan yürüşlərində göstərdiyi xidmətlərə görə irsi xan titulu alan Cəmaləddin bəy (Qara xan) Talışın Uluf mahalının bir hissəsinə hakim təyin edilmişdi. Nadir şahın ölümündən sonra Talışa qayıdan Qara xan burada müstəqil hakimiyyət quraraq Lənkəran xanlığının əsasını qoydu. Mir Namik Bəşirovun məlumatına görə, Qara xan, xanlığın mərkəzi hakimiyyətini möhkəmləndirmiş, daimi qoşun yaratmış və yerli feodalların təsirini məhdudlaşdırmışdır. 1747-ci ildə paytaxtın Astaradan Lənkərana köçürülməsi şəhərin xanlığın mühüm siyasi və iqtisadi mərkəzinə çevrilməsinə şərait yaratmışdır [1, s.17].

Şəki xanlığının yaranması Nadir şahın mərkəzləşdirici siyasətinə qarşı yerli müqavimətin nəticəsi idi. Şəkililərin tələbi ilə Hacı Çələbi Qurban oğlu Məlik Nəcəfə nəzarət etmək üçün vəkil təyin olunsa da, 1743-cü ildə üsyan edərək onu öldürdü və Şəkidə müstəqil hakimiyyət qurdu. Osmanlı ilə müharibənin davam etməsindən istifadə edən Hacı Çələbi "Gələsən-görəsən" qalasında müdafiəyə çəkildi. Nadir şahın 1744-cü ildə 15 minlik qoşunla Şəkiyə yürüşü nəticəsiz qaldı. 1745-ci ildə isə şəhəri geri qaytara bilməyən Nadir şah Şəkini yandırdı [13; 17, s.50].

Mahmud İsmayıl, Maya Bağırova isə bu hadisəni belə təsvir edirlər:

"Nadir Hacı Çələbiyə hədiyyələr göndərərək təslim olmağı təklif etdi, lakin xalqın əzminə arxalanan Hacı Çələbi şahın tələbini rədd etdi. Nadir şah qalanın müdafiəçilərini aclığa düçar etməklə diz çökdürməyə çalışdı. Bu da kömək eləmədi. 1745-ci ilin mayında İran qoşunları, qala ətrafında qarnizon qoyaraq Şəkini tərk etdilər. Onlar yolları üstündə olan bütün kəndləri, yaşayış məntəqələrini talan edib viranəyə döndərdilər" [6, s.12].

1746-cı ilin martında ərzaq çatışmazlığı Hacı Çələbinin müqavimətini zəiflətdi və o, Nadir şahın hakimiyyətini tanımağa məcbur oldu. Şah onun Şəkiyə vəkil kimi qayıtmasına icazə verdi. Lakin 1747-ci ildə Nadir şahın ölümündən sonra Hacı Çələbi Şəkidə müstəqil hakimiyyətini bərpa etdi. XVIII əsrin 40-cı illərinin sonlarında Qəbələ və Ərəş sultanlarının, 1751-ci ildə isə Qazax və Borçalı sultanlıqlarının onun hakimiyyətini qəbul etməsi Şəki xanlığının siyasi nüfuzunun genişləndiyini göstərirdi. Hacı Çələbi Gəncə və ətraf ərazilərə nəzarəti genişləndirməyə çalışan Kartli hökmdarları Teymuraz və II İrakliyə qarşı da mübarizə aparmışdı. 1755-ci ildə onun ölümündən sonra isə hakimiyyət uğrunda mübarizə xanlığın siyasi-hərbi qüdrətini zəiflətdi.

Qarabağ xanlığı XVIII əsrin ortalarında mərkəzi hakimiyyətin zəifləməsi şəraitində formalaşdı. Xanlığın əsasını Cavanşir tayfasının Sarıcalı oymağından Pənahəli bəy qoydu. Nadir şahın sarayında xidmət etmiş Pənahəli bəy 1738-ci ildə qardaşı Fəzləli bəyin edamından sonra saraydan uzaqlaşaraq Zəngəzurda məskunlaşdı və ətrafına çoxsaylı tərəfdarlar topladı. Nadir şahın ölümündən sonra müstəqil hakimiyyətini elan edən Pənahəli xan 1748-ci ildə Bayat qalasını iqamətgahına çevirdi. Qalanın müdafiə baxımından əlverişsizliyi 1752-ci ildə Şahbulağı qalasının inşasına, daha sonra isə strateji mövqedə Pənahabad qalasının salınmasına səbəb oldu. Sonralar Şuşa adlandırılan bu qala Qarabağ xanlığının əsas siyasi mərkəzinə çevrildi.

Qarabağ xanlığının legitimliyini əsaslandıran rəvayətlərdən birini Zemfira Hacıyeva Pənahəli bəyin Hülakülər sülaləsindən olan Arqun xanın nəslindən gəldiyi və onun əcdadı Məhəmməd xanın Qarabağ torpaqlarına dair ceyran dərisi üzərində yazılmış qəbaləyə sahib olduğu barədə məlumatla əlaqələndirir [4, s.41].

Qarabağ xanlığının təşəkkülü və Pənahəli xanın siyasi fəaliyyətinin ilkin mərhələsi ilə bağlı Mustafa Aydının məlumatları da diqqəti cəlb edir. Müəllif Pənahəli bəyin Nadir şah tərəfindən Xorasana sürgün edildiyini, 1747-ci ildə şahın öldürülməsindən sonra isə Qarabağa qayıtdığını və burada yerli türk tayfaları ilə elatların dəstəyini qazanaraq hakimiyyətini möhkəmləndirdiyini qeyd edir. Aydının məlumatına görə, Pənahəli bəyin hakimiyyətinin möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi tədbirlər sırasında Bayat, Şahbulaq və Əsgəran qalalarının, daha sonra isə Şuşa (Pənahabad) qalasının inşası mühüm yer tutmuşdur [12].

Mövcud tarixşünaslıq göstərir ki, ərazisi və hərbi potensialı məhdud olan Bakı xanlığı əlverişli coğrafi mövqeyi və iqtisadi resursları ilə seçilirdi. Xəzər sahilində yerləşən Bakı mühüm liman və neft-duz hasilatı mərkəzi kimi həm Xəzəryanı ticarətdə, həm də regional iqtisadi əlaqələrdə əhəmiyyətli mövqeyə malik idi.

Mərziyə İskəndərovanın məlumatına görə, təxminən 75 verst uzunluğunda və 30-40 verst enində olan xanlıq Abşeron yarımadasını əhatə edirdi. Şərq, şimal və cənubdan Xəzər dənizi, qərb və cənub-qərbdən Şamaxı, şimal-qərbdən isə Quba xanlığı ilə həmsərhəd idi. Bu coğrafi mövqe Bakı xanlığının siyasi-iqtisadi əlaqələrinə və Xəzər dənizi üzərindən ticarət münasibətlərinə təsir göstərirdi [20, s.12].

Xanlığın siyasi və inzibati mərkəzi qədim Bakı şəhəri idi. Tarixi mənbələrdə şəhərin qala və onun ət-

rafında yerləşən rabatdan ibarət olduğu, qədim dövrlərdən etibarən qala divarları ilə möhkəmləndirildiyi qeyd edilir. Bakının həm müdafiə baxımından əlverişli istehkam şəhəri, həm də Xəzər sahilində yerləşən mühüm liman və ticarət mərkəzi olması onun Bakı xanlığının siyasi həyatında aparıcı mövqeyini müəyyənləşdirirdi [19].

Keçmiş Qarabağ (Gəncə) bəylərbəyliyinin mərkəzi hissəsində də yerli hakimiyyətin müstəqilləşməsi prosesi baş verdi. Qarabağ bəylərbəylərinin nəslindən olan Şahverdi xan Ziyadoğlu mövcud siyasi vəziyyətdən istifadə edərək hakimiyyətini qorudu və Gəncə xanlığının müstəqilliyini elan etdi.

Azərbaycanın şimal-şərqində Dərbənd şəhəri və onun ətraf ərazilərini əhatə edən Dərbənd xanlığı meydana gəldi.

Keçmiş Şirvan bəylərbəyliyinin ərazisində isə iki ayrı siyasi mərkəz – Yeni Şamaxı və Şamaxı xanlıqları formalaşdı. İbrahim şah Hacı Məhəmmədəli xanı Yeni Şamaxının hakimi təyin etmişdi. Köhnə Şamaxıda isə Xançobanı tayfasının Sərkarlar nəslinin nümayəndəsi Əsgər bəyin oğlu Məhəmməd Səid xan hakimiyyət iddiası ilə çıxış etdi. Yeni Şamaxıda Hacı Məhəmmədəli xanın İrana meyilli siyasətindən yaranmış narazılıq Məhəmməd Səid xanın mövqelərini gücləndirdi. Qardaşı Ağası xanın dəstəyi ilə hərəkət edən Məhəmməd Səid xan 1763-cü ildə Yeni Şamaxını ələ keçirdi və Hacı Məhəmmədəli xanı həbs etdirdi.

Şirvanın siyasi əhəmiyyətinin formalaşmasında onun əlverişli coğrafi mövqeyi də mühüm rol oynayırdı. Vladimir Minorskinin qeyd etdiyi kimi, Qafqaz dağlarının şimal və cənub hissələrini birləşdirən ən mühüm keçidlərdən biri Dərbənd – "Dəmirqapı" – idi. Bu strateji keçidin Şirvanla əlaqəsi bölgənin həm hərbi-strateji, həm də ticarət baxımından əhəmiyyətini artırırdı. Şirvanın siyasi və iqtisadi həyatında mühüm yer tutan Şamaxı isə uzun müddət regionun əsas ticarət mərkəzlərindən biri olmaqla yanaşı, burada baş verən mədəni proseslərin də aparıcı məkanlarından biri kimi çıxış etmişdir. Beləliklə, Şamaxının siyasi mərkəz kimi mövqeyi yalnız xanlıqlar dövrünün siyasi prosesləri ilə deyil, həm də şəhərin əvvəlki əsrlərdən formalaşmış iqtisadi, strateji və mədəni əhəmiyyəti ilə şərtlənirdi [21].

Kür və Araz çaylarının birləşdiyi ərazidə XVIII əsrin ortalarında Tale Həsən xanın rəhbərliyi ilə Cavad xanlığı formalaşmışdı. Kürün aşağı axarında isə daha kiçik siyasi qurum olan Salyan xanlığı meydana gəlmişdi. Tarixi mənbələrdə bu ərazi bəzi hallarda sultanlıq kimi də təqdim edilir. Salyan xanlığının siyasi mövcudluğu uzun sürməmiş, 1756-cı ildə Quba xanı Hüseynəli xanın vəliəhdi Fətəli bəy tərəfindən ələ keçirilərək Quba xanlığının tərkibinə qatılmışdı.

"1747-ci ildə Nadir şahın dövləti süquta uğradıqdan sonra kəngərli tayfa başçısı Heydərqulu xan və yerli feodallara arxalanıb, Ağa Həsəni hakimiyyətdən uzaqlaşdıraraq özünü Naxçıvan xanlığının müstəqil hakimi elan etdi" [3, s.14].

Lakin Tofiq Mustafazadənin "XVIII-XIX əsrin əvvəllərində qonşu dövlətlər və Azərbaycan" adlı monoqrafiyasında xanlığın banisi Hüseynqulu xan qeyd edilir.

"Azərbaycanın qərb hissəsində yerləşən Naxçıvan xanlığının əsasını kəngərli tayfa başçısı Hüseynqulu xan qoymuşdu" [9, s.238].

Böyük ehtimalla Ərəb əlifbası ilə yazılmış orijinal xanlıq sənədlərində və salnamələrdə "Heydərqulu" və "Hüseynqulu" adlarının qrafik yazılışı birbirinə çox bənzəyir. İlk tədqiqatçılar və mətni çevirən katiblər tərəfindən bu adların səhv oxunması halları baş vermişdir.

XIX əsrdə çar Rusiyasının hərbi-inzibati sənədlərində rus dilinə tərcümə zamanı xanın adı tez-tez "Гусейн-Кули" (Hüseynqulu) kimi transkripsiya edilmişdir. Bu yanlışlıq sonradan bir sıra erkən sovet dövrü tarix ədəbiyyatına və yardımçı dərsliklərə də yol tapmışdır.

Müasir Azərbaycan tarixşünaslığında, Kəngərli sülaləsinin arxiv sənədləri və şəcərə tədqiqatları əsasında xanlığın banisinin məhz Heydərqulu xan Kəngərli (1747-1763) olduğu tam dəqiqləşdirilmişdir.

Beləliklə, XVIII əsrin ortalarında Azərbaycanın qərb bölgəsində yaranan Naxçıvan xanlığının siyasi əsasları kəngərli tayfasının nüfuzlu nümayəndələrinin hakimiyyətə gəlməsi ilə formalaşdı. Sonrakı dövrdə, xüsusilə XVIII əsrin 60-80-ci illərində xanlıq daxilində hakimiyyət uğrunda mübarizənin dərinləşməsi onun siyasi sabitliyinə və hərbi imkanlarına mənfi təsir göstərdi. Nəticədə zəifləyən Naxçıvan xanlığı Xoy, Qarabağ və İrəvan xanlıqlarının, Kartli-Kaxeti çarlığının, habelə İran hakimlərinin siyasi maraqlarının toqquşduğu əsas məkanlardan birinə çevrildi.

İrəvan xanlığı keçmiş Çuxursəd bəylərbəyliyinin ərazisində formalaşmış siyasi qurumlardan biri olmuşdur. Xanlığın siyasi təşəkkülü bəzi mənbələrdə yerli nüfuzlu şəxslərdən olan Mir Mehdi xanın adı ilə əlaqələndirilir. Səidə Hacıyeva da İrəvan xanlığının yaranması ilə bağlı bu məsələyə toxunaraq, mənbələrdə onun ilkin siyasi əsaslarının Nadir şah tərəfindən İrəvana qazı təyin edilmiş Pir Mahmud tərəfindən müəyyənləşdirildiyini qeyd edir: "*Qurulmuş xanlıqlardan biri də İrəvan xanlığı idi.*

Mənbələrdə qeyd olunduğu kimi, İrəvan xanlığının prinsipləri vaxtilə Nadir şah tərəfindən İrəvana qazı təyin edilmiş Pir Mahmud tərəfindən müəyyənləşdirilmişdi" [14, s.77]. Bununla belə, həmin əsərin digər hissəsində xanlığın əsasının İrəvanda Nadir şah hakimiyyətinə qarşı baş vermiş üsyana rəhbərlik edən yerli varlılardan Mir Mehdi xan tərəfindən qoyulduğu göstərilir. Bu məlumatlar İrəvan xanlığının siyasi təşəkkülündə həm əvvəlki inzibati-idarəçilik ənənələrinin, həm də yerli hakimiyyət uğrunda mübarizənin rol oynadığını göstərir.

İrəvan xanlığının ilkin formalaşma mərhələsi hakimiyyət uğrunda mübarizə və xarici müdaxilələrlə səciyyələnmişdir. 1751-ci ildə Urmiya hakimi Fətəli xan Əfşarın sərkərdəsi Azad xan İrəvanı ələ keçirmiş, Mir Mehdi xanın hakimiyyəti zəifləmiş, 1755-ci ildə isə Həsənəli xan hakimiyyəti bərpa etmişdir. Sonrakı dövrdə Hüseynəli xan xanlığın siyasi mövqeyinin möhkəmləndirilməsi və daxili sabitliyin təmin olunması istiqamətində fəaliyyət göstərmişdir.

Cənubi Azərbaycanın mühüm siyasi mərkəzlərindən biri olan Urmiya xanlığı Urmiya gölünün qərb və cənub sahillərini əhatə edirdi [18]. Xanlığın siyasi qurucusu Fətəli xan Əfşar 1747–1763-cü illərdə bölgənin aparıcı siyasi qüvvələrindən biri olmuş, Azad xanı öz tərəfinə cəlb edərək bir sıra xanlıqları asılı vəziyyətə salmış və Qarabağa yürüş edərək Şuşanı mühasirəyə almışdı. 1763-cü ildə Kərim xan Zənd tərəfindən məğlub edilərək edam olunmasından sonra Urmiyanın regional təsiri zəifləmişdir. Bu dövrdə Xoy, Marağa, Maku və Təbriz xanlıqları da Cənubi Azərbaycanın siyasi xəritəsində mühüm yer tuturdu. Şahbaz xanın yaratdığı Xoy, Əliqulu xan Müqəddəmin əsasını qoyduğu Marağa, Əhməd Sultan tərəfindən yaradılan Maku və Nəcəfqulu xanın rəhbərlik etdiyi Təbriz xanlıqları arasında siyasi münasibətlərdə Urmiya xanlığının təsiri, xüsusilə Fətəli xan Əfşarın hakimiyyəti dövründə, mühüm rol oynamışdır.

Bəzi internet ensiklopediyalarında xanlığın banisi Əmiraslan xan kimi qeyd edilir [11]. T.Mustafazadə və başqaları isə tədqiqatlarında Nəcəfqulu xanı banis olaraq qeyd edib. [9, s.239; 8, s.297; 16, s.497.].

Tarixşünaslıqda Təbriz xanlığının banisi məsələsinə iki fərqli yanaşma var. Tofiq Mustafazadə və bir sıra Azərbaycan tarixçilərinin monoqrafiyalarında xanlığın banisi kimi Nəcəfqulu xan Dünbilinin göstərilməsi bir neçə konseptual səbəbə söykənir.

Əmiraslan xan Əfşar 1747-ci ildə Təbrizi tutaraq mərkəzi hakimiyyət yaratmağa çalışsa da, bu idarəçilik qısamüddətli hərbi-siyasi xarakter daşıyırdı. Nəcəfqulu xan Dünbili isə xanlıqda uzunmüddətli və irsi Dünbili sülaləsinin idarəçiliyinin əsasını qoymuşdur.

Nəcəfqulu xan hələ Nadir şahın sağlığında Təbrizdə idarəçilik səlahiyyətlərinə malik idi. Şahın ölümündən sonra yaranan siyasi boşluqdan istifadə edərək yerli Dünbili feodallarının dəstəyi ilə Təbriz vilayətini müstəqil xanlıq kimi idarə etməyə başladı.

Təbriz xanlığının şərqində Ərdəbil xanlığı yerləşirdi. Şahsevən tayfasının başçısı Nəzərəli xan tərəfindən yaradılan bu xanlıq 1747-1787-ci illərdə onun hakimiyyəti altında olmuşdur.

Təbriz və Ərdəbil xanlıqları arasında Sərab xanlığı yerləşirdi. Onun banisi Şəqqaqi tayfasının başçısı Əli xan (1747-1786) idi.

Ərdəbil xanlığının cənubunda isə Zəncan xanlığı yerləşir və onun siyasi əsasını da Əli xan qoymuşdu.

XVIII əsrin ortaları Azərbaycan və Yaxın Şərqin siyasi tarixində mühüm dəyişikliklərlə səciyyələnmişdir. 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsi imperiyanın siyasi bütövlüyünün dağılmasına və hakimiyyət uğrunda mübarizənin güclənməsinə səbəb olmuşdur. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində müxtəlif tayfa rəhbərləri mövqelərini möhkəmləndirməyə çalışır, Azərbaycan ərazisində isə xanlıqlar formalaşırdı.

Bu dövrdə Kərim xan Zənd və Məhəmmədhəsən xan Qacar Cənubi Azərbaycanda siyasi üstünlük uğrunda əsas rəqiblərə çevrilmiş, onların mübarizəsi Azərbaycan xanlıqlarının siyasi vəziyyətinə də təsir göstərmişdir. Kərim xanın bölgədə təsirini genişləndirmək cəhdləri Osmanlı dövləti ilə qarşıdurmanı dərinləşdirmişdir. Beləliklə, Azərbaycan xanlıqlarının təşəkkülü və xarici siyasəti daxili siyasi parçalanma və regional rəqabətin təsiri altında formalaşmışdır.

NƏTİCƏ

XVIII əsrin ortalarında Nadir şah Əfşarın qətlindən sonra Cənubi Qafqazda meydana gələn yeni siyasi nizam və Azərbaycan xanlıqlarının təşəkkülü prosesi Azərbaycan, Türkiyə və Rusiya tarixşünaslığında müxtəlif konseptual rakurslardan təhlil edilmişdir. Məqalədə aparılan tədqiqat göstərir ki, xanlıqların yaranması yalnız mərkəzi hakimiyyətin süqutu ilə məhdudlaşmayan, daxili sosial-iqtisadi inkişaf, yerli irsi idarəçilik ənənələri və beynəlxalq geosiyasi rəqabətin kəsişməsində formalaşan mürəkkəb tarixi prosesdir.

Ümumilikdə, Azərbaycan xanlıqlarının formalaşması və onların Osmanlı dövləti ilə diplomatik əlaqələri Cənubi Qafqazın XVIII əsrin ikinci yarısındakı beynəlxalq siyasi mənzərəsinin ayrılmaz tərkib hissəsidir. Məqalədə tətbiq olunan kompleks tarixşünaslıq təhlili regional prosesləri təkölçülü

deyil, Azərbaycan, Türkiyə və Rusiya tarixşünaslıq məktəblərinin sintezində daha obyektiv və dolğun qiymətləndirməyə imkan verir.

ƏDƏBİYYAT SİYAHISI:

1. Bəşirov, M. Cığır. Lənkəran xanlığı və xan nəsillərinin şəcərə tarixi haqqında / M.Bəşirov. – Bakı: Savad, – 2019. – 176 s.
2. Dəlili, H.Ə. Azərbaycanın cənub xanlıqları (XVIII əsrin ikinci yarısında) / H.Ə.Dəlili. – Bakı: Elm, – 1979. – 242 s.
3. Əliyev, F. Naxçıvan xanlığı (1747-1828) / F.Əliyev, M.Əliyev – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1996. – 106 s.
4. Hacıyeva, Z. Qarabağ xanlığı: sosial-iqtisadi münasibətlər və dövlət quruluşu / Z.Hacıyeva. – Bakı: Təhsil, – 2007. – 254 s.
5. İbişov, S.Ə. Quba xanlığı: əhali, tarixi və zadlıq mücadiləsi / S.Ə.İbişov. – Bakı: Elm, – 2012. – 336 s.
6. İsmayıl, M. Şəki xanlığı / M.İsmayıl, M.Bağırova. – Bakı: Azərnəşr, – 1997. – 76 s.
7. Mustafayeva, N. Cənubi Azərbaycan xanlıqları / N.Mustafayeva. – Bakı: Azərnəşr, – 1995. – 96 s.
8. Mustafazadə, T.T. Azərbaycan xanlıqlarının qısa tarixi / T.T.Mustafazadə. – Bakı, – 2011. – 392 s.
9. Mustafazadə, T.T. XVIII-XIX əsrin əvvəllərində qonşu dövlətlər və Azərbaycan / T.Mustafazadə. – Bakı: Nəşriyyat şöbəsi, – 2026. – 532 s.
10. Saray, M. Quzey və Güney Azərbaycan türklərinin tarixi / M.Saray. – Bakı: Şərq-Qərb, – 2010. – 724 s.
11. Təbriz xanlığı: [elektron resurs] / URL: https://az.wikipedia.org/wiki/T%C9%99briz_xanl%C4%B1%C4%9F%C4%B1
12. Aydın, M. Karabağ // – İstanbul: TDV İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı Yayınları, – 2001. – c.24, – s.367-368.
13. Aydın, M. Şeki // – İstanbul: TDV İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı Yayınları, – 2010. – c.38, – s.489.
14. Hacıeva, S. İrevan (Revan) Türk Hanlığı ve Osmanlı Devleti ile ilişkileri // Türkler: [21 ciltte] / ed. Hasan C.Güzel, K.Çiçek, S.Koca – Ankara: Yeni Türkiye Yayınları, – c.7. – 2002. – s.76-89.
15. Kara, F. Kafkasya'nın kalbinde Türk egemenliği: Kuzey Azerbaycan hanlıklarının tarihi serüveni // – Erzurum: İran ve Turan Tarihi Araştırmaları Dergisi, – 2025. sayı 14, – s.1-37.
16. Kara, F. Parlayan yıldız Azerbaycan'da Türk hanliklarinin tarihi ve kültürel izleri (1747-1844) // F.Kara. – Muğla: Genel Türk Tarihi Araştırmaları Dergisi, – 2025. cilt 7, sayı 14, – s.491-520.
17. Osmanlı Devleti ile Azerbaycan Hanlıkları Arasındaki Münâsebetlere Dâir Arşiv Belgeleri // hazır. İ.Demir, U.Demirbaş, H.Osman Yıldırım, Y.Ağanoğlu, H.Akdağ, Ö.Bayır – Ankara, – 1993. – 261 s.
18. Özgüdenli, Gazi O. Urmiye // – İstanbul: TDV İslam Ansiklopedisi, Türkiye Diyanet Vakfı Yayınları, – 2012. – c.42, – s.179.
19. Гмелин, С.Г. Путешествие по Росии для исследования всех трех царств естества в природе (1771-1785) / С.Г.Гмелин. – Москва: СПб, – ч.3. – 1785. – 360 с.
20. Искендерова, М. Бакинское ханство / М.Искендерова. – Бакы: Чашыоглу, – 1999. – 212 с.
21. Minorsky, V. Studies in Caucasian History / V.Minorsky. – London: Cambridge University Press, – 1953. – 202 p.

THE FORMATION OF AZERBAIJANI KHANATES AND THE INTERNATIONAL POLITICAL SITUATION OF THE SOUTH CAUCASUS (IN AZERBAIJANI, TURKISH, AND RUSSIAN HISTORIOGRAPHY)

Ulkar Elshan Jamilli
Institute of Manuscripts named after Muhammad Fuzuli of ANAS, PhD student

SUMMARY

The article examines the emergence of the Azerbaijani khanates in the mid-18th century and the international political situation of the South Caucasus based on existing approaches in Azerbaijani, Turkish, and Russian historiography. The study analyzes the formation characteristics of the political entities that arose across the territory of Azerbaijan following the weakening of central authority after the assassination of Nadir Shah Afshar in 1747, alongside their political, socio-economic, and administrative foundations. It establishes that while Azerbaijani historiography primarily attributes the formation of the khanates to the decline of central rule, local governance traditions, and socio-economic factors, Turkish historiography places particular emphasis on interpreting this process within the context of the Russian Empire's South Caucasus policy and region-

al geopolitical rivalry. The article comparatively reviews differing conceptual approaches in historiography regarding the origin of the khanates, including perspectives on the political status of Azerbaijan and the character of the Safavid state. Furthermore, historiographical data concerning the establishment of the Quba, Shaki, Karabakh, Lankaran, Baku, Shamakhi, Ganja, Nakhchivan, Iravan, Urmia, Khoy, Tabriz, Ardabil, and other khanates are systematized. The research demonstrates that the emergence of the khanates cannot be explained solely by the collapse of central authority; rather, the process took shape through the interplay of local administrative traditions, political fragmentation, socio-economic factors, and the interacting interests of Russian, Ottoman, and other regional political powers in the South Caucasus.

Keywords: *Azerbaijani khanates, 18th century, historiography, South Caucasus, Ottoman Empire.*

ВОЗНИКНОВЕНИЕ АЗЕРБАЙДЖАНСКИХ ХАНСТВ И МЕЖДУНАРОДНОЕ ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ ЮЖНОГО КАВКАЗА (В АЗЕРБАЙДЖАНСКОЙ, ТУРЕЦКОЙ И РОССИЙСКОЙ ИСТОРИОГРАФИИ)

Улкар Эльшан Джамилли
Институт рукописей имени Мухаммада Фузули, ANAS, докторант

РЕЗЮМЕ

В статье на основе существующих подходов в азербайджанской, турецкой и российской историографии исследуется процесс образования азербайджанских ханств в середине XVIII века и международное политическое положение Южного Кавказа. В исследовании анализируются особенности формирования политических образований, возникших на территории Азербайджана после ослабления центральной власти в результате убийства Надир-шаха Афшара в 1747 году, а также их политические, социально-экономические и административные основы. Устанавливается, что если в азербайджанской историографии возникновение ханств связывается преимущественно с ослаблением центральной власти, местными традициями управления и социально-экономическими факторами, то в турецкой историографии особое внимание уделяется объяснению этого процесса в контексте политики Российской империи на Южном Кавказе и регионального геополитического соперничества. В статье в сравнительном аспекте рассматриваются различные концептуальные подходы, существующие в историографии относительно образования ханств, включая вопросы политического статуса Азербайджана и характера Государства Сефевидов. Также систематизируются историографические данные, касающиеся становления Губинского, Шекинского, Карабахского, Ленкоранского, Бакинского, Шемахинского, Гянджинского, Нахичеванского, Иреванского, Урмийского, Хойского, Тебризского, Ардебильского и других ханств. В результате исследования обосновывается, что возникновение ханств не может объясняться исключительно падением центральной власти; данный процесс формировался в условиях взаимодействия местных традиций управления, политической раздробленности, социально-экономических факторов и переплетения интересов России, Османской империи и других региональных политических сил на Южном Кавказе.

Ключевые слова: *Азербайджанские ханства, XVIII век, историография, Южный Кавказ, Османская империя.*

Rəyçi: Tarix elmləri doktoru, dosent Tahirə Dadaşzadə

Məqalə redaksiyaya daxil olub: 08.07.2026
Çapa qəbul olunub: 19.08.2026
The date of the admission of the article to the editorial office: 08.07.2026
Accepted for publication: 19.08.2026